

Məlahət Yusifqızı

# Fikir qatları

## *Əli Aslanoğlunun şeirləri barədə*

Görünməyən nəsnə, hesab etmək olar ki, yox kimidir. Görmək və göstərmək bacarığı hər bir işin mahiyyətini təşkil edir. Bir halda ki, qiymətlədirmə mahiyyətdən deyil, zahiri görkəmdən başlayır, onda mahiyyəti göstərmək bacarığı olmalıdır. Mahiyyət göstərilməyəndə zahiri görkəmə görə yürüdülən fikirdə yalan üstünlük təşkil edə bilər, çünki çox nəsnə göründüyü kimi deyil. - Ağlın zahiri görkəmi ağılsızlıqdırsa, o hörmətlə qarşılanmaz, - deyilib. Qəlbin incəliyi, ruhun yüksəkliyi, hərəkətin, davranışın gözəlliyi insanın əzəmətini göstərir və bu əzəmət hamıya verilməyir.

*...Memarın vaqif deyil bərpasına bərbadımın,*
*Nə fikir?! Tiksin özü, əl vurmasın zindanıma.*

*Məndə bir can nəzri var, Əzrailə yetmir əlim,*
*Ver ona isnad məni, göndər mənim ünvanıma.*

*Eşq evin mənzil edib, yer vermişəm hər müşkülə,*
*Dərdimə dərd artıran heyrətdədir səhmanıma.*

Eşq evində hər müşkülə yer verilirsə, səhmana dərdin üstündən dərd artıranın özü belə heyrətlənirsə, bu zahiri göstərmək bacarığı deyil, bu daxili mahiyyətin, davranışın gözəlliyi və üzə çıxarılmasıdır, yəni hamıya verilməyən ustalıqdır. Davranışın bir aliliyi də odur ki, hər nəsnə "yaxşılıqla" qurtarır:

*- Varlığımdan məhrumam nakam məhəbbət eşqinə,*
*Yoxluğum təsdiqi kim, barəmdə söhbət yoxdu ta.*

Belə insan nailiyyəti hesabına qələbə çalmış olsa belə, lovğalanmaz, əksinə ört-basdır edər və ya qisasının alınma məqamı gəlib çatanda belə, görünməmiş mərdlik və alicənablıq göstərər, "odunu, atəşini boş yerə sərf edər":

*- Qandığımdan hər zaman borcum olub qanmazlara,*
*Varlığım qurban gedib qəlbdən, könüldən azlara.*

*Daşürək nakəsləri mən boş yerə tutdum oda,*
*Atəşim sərf eylədim yaş çırpı tək yanmazlara.*

*Sidqi-dildən əl tutub, çox insana verdim kömək,*
*Diqqətim cəlb eylədim bir an məni anmazlara.*

Çatışmazlıq içərisindən yeganə və xırda bir uğuru axtarıb tapan zövq sahibi xoşbəxtdir, zəngindir Yaxşı əməl yaxşı sözdən üstündür. Düzdür, söz əməli arxasınca çəkib aparmaq gücündə olsa da, əməl sözdən daha görkəmlidir. İnsan da, mühit də əmələ görə qiymətləndirilir. Tərs əməli olan tərs sözü olandan daha pis və tərsdir. Yəni hərəkət sözdən çox təhlükəlidir, çox halda söz hərəkətin tənzimləyicisi olsa belə:

*- Kimə baxsan, özü deyil,*
*Söz danışır, sözü deyil.*
*Hər söz sözün düzü deyil,*
*Bu dünya alt-üst görünür...*

Hər söz sözün düzü, sözlə əməl qardaş olanda dünyanın işləri alt-üst görünmür. Ustad söz adamları sözün düzünü tapıb, dənələyib üzə çıxarır, pisini, pis yola, əmələ çəkənini pisləyir, lənətləyir.

*Dedi: - yaman artıb mərdiməzarlar,*
*Daha şeytanlara bir iş qalmayıb.*
*Onlara tabedi bütün bazarlar,*
*Hər yandan bağlıdı, giriş qalmayıb.*

"Şeytana bir iş qalmayıb", - desə də, müəllif dəqiq bilir ki, Yaradanla üzbəüz qalanadək Şeytanın hər nəsnə ilə işi var. Əsası və haqq olanı odur ki, Şeytana uyma:

*- Çəkin qulağımdan Şeytan səsini,*
*Verin o dünyanın xəritəsini!*
*Görüm, mən hardayam, qismətim harda?!*
*Haqqa, ədalətə nisbətim harda?!*

Təbiət və Yaradan heç bir canlını bugünkü xasiyyət və formada yaratmayıb. Təkamül, təbiət və iqlimin nəticəsində canlıların forma dəyişkənliyi ilə yanaşı, canlıların istər eyni növ və istərsə də digərləri ilə qurduqları və ya təbii şəkildə yaranan mühitdə həmin mühitə uyğun ünsiyyət, formalaşan münasibət, rəftar, "gerçək" və "yalan" deyə ona xidmət edən xasiyyət dəyişkənliyi də baş verir. Uzun zaman ərzində mühit dəyişkənliyi qana, genə oturur və "ot kökü üstə bitir". Bu hal canlı olaraq insanlarda daha əhatəli, şaxəli və mərtəbəlidir. Hər kəs bildiyi halda ki, düzgün olmaq gərəkdir, hətta azdır, hiyləgər, yalançı, ziyankar və zəhlətökən olmaq ayıbdır, onda qazandığın hər bir nəsnə hörmətsiz olur, "təmiz adın ləkələnir". Təmiz ad xidmət və irəli getmək bacarığının qarşılıqlı, eyni zamanda yaxşı nəticəsidir, yenə də arzu olunmayana doğru gedənlər tapılır, bəlkə də çoxalır. Və ya o dərəcədə çoxdur ki, müəllif:

*- Ancaq nə etibar, sümüksüz dilə?!*
*Çaşıb doğrunu da söyləyə bilər.*
*Doğru doğruluğun bilsə də belə,*
*Meydanda tək qalsa neyləyə bilər?!*

*...Bəlkə də əzəldən yalanmış dünya?!*
*Yalanmış ləzzət də, yalanmış dad da.*
*Sənin toyun olsun, talanmış dünya!*
*Gerçək də yalanmış bir özgə adda,*

- deyir. Bu qarışıqlıq içərisindəki anlaşılmazlıq ayıq adamı üzməyə bilməz. Yalana nifrətin gücündən yalana "ağ" deyilməsinə qarşı "üsyan" edir. Hansı ki, dilimizdə "ağ elədin" deyimi var. Bu ona bənzəyir ki, şər, böhtan yazdın, adını, imzanı gizlətdin və ya yazdığın üzü deyil, ağ üzü göstərdin:

*- Ağ yalan deyirlər, ağdırsa yalan,*
*Doğruya don biçək gərək qaradan.*
*Görəsən, kim imiş bu dərdə qalan,*
*Bu yanlış söhbəti düzüb yaradan?!*

*Yalan ağ olsaydı, üz ağardardı,*
*Doğru üzqaralıq olardı başa.*
*Deyirəm, düşüncə necə də dardı,*
*Bəlkə pambıq deyək biz qara daşa?!*

Görünür, əvəzolunmazlar o qədər azdır ki, arzuolunmazlar isə o qədər çoxdur ki... Onları tanımaq lazımdır. Lazımdır ki, öz daxilini, hər dəm ətrafını onlardan təmizləyə, ən azından zərərsizləşdirə biləsən. Çünki hər bir cahillikdə qaragüruh var, qaragüruh isə cahillərdən ibarətdir.

Vacib olmayanlara görə qüssələnmək və əhəmiyyət kəsb edənlərə görə laqeyd qalmaq eyni dərəcədə gərəksiz olmaq deməkdir. Hər nəsnədən zövq almağı bacaran adam ona aid olmayanın barəsində düşünmür. Yəni hər boş nəsnədən iş çıxarmaq ən boş-boşuna görülən işdir. Dava-dalaşsız mübahisəsiz gün hər kəsin arzuladığı gündür. Görmək, eşitmək və susmaq hər kəsə vacibdir. Yaxşı, bəs onda bu dava-dalaşsız, mübahisə - qalmaqalsız, sakit və barış dolu günü qazanmaq üçün görüb, eşidib, susmaq nə dərəcədə doğru olandır?!

*Qızıl xəncər olma, düşüb kitaba,*
*Taqət qalmayıbdı dözümə, taba.*



*Paslı tiyə ol ki, bu gün batasan,*
*Bəlkə bu cür mətləbinə çatasan.*

Ümidlərin düşünmədən vəd verdiyini, həyatın isə heç nəyi yerinə yetirmədiyini bilən adam öz gücünə dayanıb, addım atmalıdır. Bir işə başlayanda imkanı düzgün qiymətləndirib, fikirlərə düzəliş vermək çox vacibdir. Yanlışı ağıl düzəldir, - deyilib. Bəs güc?!

*Kimə gərək ağıllı baş?!*
*Ağıl dəbdən düşüb, qardaş!*
*Çox sinədə bir qara daş*
*Asılıb ürək əvəzi.*

Ağıl və güc. Gücün olmayanda "ağıl dəbdən düşür"- deyirsən. Ağılla gücün bərabərlik və tarazlığı gözlənilməlidir.

Yaradan peyğəmbərdən tutmuş Yer üzərindəki bütün seçilmişlərini sülh, barış üçün yaradıb və seçib. Seçib ki, adınla, ləqəbinlə deyil, sözünlə, əməlinlə əlçatmaz ol. Asan iş uğrunda çətin, çətin iş uğrunda asan iş kimi mübarizə apar. Əməlsiz ad, ləqəb boş sözdür:

*- Təpə olub, cığır üstdə dayanma,*
*Alçaqlar da gəlib, keçər üstündən.*
*Bir vulkan ol, sakit-sakit oyanma,*
*Elə kükrə, dağlar qorxsun tüstündən,*
*Heykəl yarat məğrurluğun büstündən.*

Həmişə özünə və ruh yaxınlarına nə isə arzulamaq vacibdir. Arzulamağa bir nəsnəsi qalmayan adamdan pislik gələr. Belə hal, xoşbəxtlik olsa belə, bədbəxtlikdir. Arzular qurtaranda təhlükə yaxınlaşır. Biz də vulkan olmağı arzulayaq müəllifə. Arzularınız, arzularımız qurtarmasın, tükənməsin! Min illərin o başından gəlib, Dədəmiz Qorquddan keçib, bizlərə qovuşan bu ənənəmiz əbədi olsun!